*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2024, №2* *ISSN: 2664-5432*
*Səhifə: 20-26*
*https://doi.org/10.59849/2664-5432.2024.2.20*

**İlhami CƏFƏRSOY***

# DURNA – İTALİYANIN AXİLLESİ

## XÜLASƏ

Qədim Ön Asiyanın prototürk nəsilləri Elladanın, Aralıq dənizi adalarının, İtaliyanın ilk mədəniyyətinin yaradıcılarıdır.

Onların bəziləri Troyanın süqutundan əvvəl e.ö. XV əsrin sonlarında, bəziləri fasilələrlə e.ö. XIV – e.ö. XI əsrlərdə Siciliya adasına, İtaliyaya köçmüş, Korsikanı, Alp dağlarını öz adları ilə adlandırmışlar.

Bu məlumatı etrusk güzgü mətnləri, Homerin, Esxilin əsərləri, Publi Maron Vergilinin "Eneida", Sili İtalikin "Punika" eposlarındakı bilgilər təsdiq edir.

Tədqiqatın dəyərli mənbələrindən biri Roma dövrünün ensiklopedik alimi Mark Terenti Varronun "Latın dili haqqında" (Di linqua latina) əsəridir. Əsər natamam halda dövrümüzədək gəlib çatsa da, orada İtaliyanın Roma dövrünə qədərki etnosları haqqında türkoloji tədqiqat üçün dəyərli bilgilər vardır. Həmin dəyərli bilgilərdən biri İtaliyanın Ön Asiya mənşəli alp igidi Durna haqqındadır. Durna antik dövr Roma ədəbiyyatında İtaliyanın Axillesi kimi təqdim olunur.

**Açar sözlər:** *Sili İtalik, Eneida, latınlar, Troya, Ana nəsli, Tarna.*

Sili İtalikin "Pun müharibəsi" və Publi Maron Vergilinin "Eneida" (ilkin mətndə Aeneida) eposlarında Durna Sabin və Rutul etnik icmalarının pəhləvanı, həm də patriarxı kimi təqdim olunur [Силий Италик: 2009.s.79; Вергилий: 1946.s.5].

Əslində isə adları tarixi mənbələrdə Torna, Turna, Tarna formalarında göstərilən etnik icmalar totemi durna olan türklərdir, Ön Asiyanın qədim sakinləridir. Onların bir hissəsi eradan əvvəl XIV əsrdə Troya ətrafında yaşayırdı. Homer "İliada" eposunda yazır ki, Turna Troyanın 8 vilayətindən biridir [Homer: 2005.s.70].

Eradan əvvəl II minilliyin sonlarında yazılmış Akkad mətnlərində Fərat çayı Turnat adlandırılır [Кероп Патканов: 1979.s.25]. Turnat totemi durna olan türklərin yurdu deməkdir, -at sami dillərində çoxluq və etnik məhsubluq bildirən şəkilçidir.

Troyanın süqutundan, yəni e.ö. 1334-cü ildən sonra Durna vilayətinin əhalisi üç yerə bölündü. Bir hissəsi yuxarı Fərat çayı boyuna, bir hissəsi Macarıstana, bir hissəsi İtaliyaya köçdü.

Durna nəslinin alpları Apenin yarımadasında sabinləri və rutulları özlərinə tabe edərək İtaliyada latınlardan öncəki ilk dövlətlərdən birini qurdular. Onların dövləti latınların və ramalıların Aralıq dənizi vadisinə gəlişinə, saldıqları şəhər eranın II əsrinədək mövcud oldu.

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Qədim mədəniyyətlər və dillər şöbəsinin müdiri, Email cfrsoy@mail.ru

Ernst Renan Mark Avreli dövrünə aid əsərində yazır ki, Turna İtaliyanın ən qədim şəhərlərindən biridir [Эрнст Ренан: 1873.s.174].

Totemi durna olan türklər İtaliyaya troyalı Eneydən qabaq gəlmişdilər. Publi Maron Vergili yazır ki, Latin öz qızı Lavinanı Turnaya vermək istəyirdi [Вергилий: Ш № 680.s.4, 20, 92]. Bu o deməkdir ki, İtaliyada Eney gələnə qədər latınlardan və prototürklərdən ibarət yeni tayfa ittifaqı yaranmaqda idi.

Ancaq Eneyin gəlişi ilə bu ittifaq çox da uzun sürmədi. Paris Axilli öldürüb Yeleni qaçıran kimi Eney Durnanı öldürüb Lavinanı özünə arvad elədi [Вергилий: Ш № 680.s.4, 20, 92, 166]. İtaliyada latınların Durna nəsli ilə ittifaqı pozuldu, patriarxı Eney olan Ana nəsli ilə ittifaqı yarandı.

Burada vacib bir məqama diqqət yetirmək lazımdır. Durna son döyüşə girərkən Eneyi *Asiya satqını* adlandırır. Nə üçün? Ona görə ki, Eney Troyadan qaçandan sonra əvvəlcə Kartagen (yunanca Karfagen) şəhərinə gəlmiş, orada kahin qız Didonanı almış, qatışıq türk-sami dövləti qurmaq istəmişdi.

Durna isə özü ilə birgə gətirdiyi sabinlərin, rutulların qüvvəsinə arxalanırdı. Azərbaycan xalqının mənşəyinə daxil olan Sabunçu tayfası elə sabinlərdir. Rutullar isə Dağıstana köçmüşdür.

Durna Eney tərəfindən öldürüləndən sonra onun sağ qalan həmtayfaları Piriney yarımadasına köçdülər. Belə hesab edirəm ki, köhnə xəritələrdə qeydə alınan İspaniyanın Torna vakas şəhərinin [Географическо-статистический словарь 1863.s.428, 429] əhalisi onların son qalıqlarından biridir.

Durna tayfasının çoxu isə Egey, Mərmərə dənizindən keçərək Avropaya köçmüşdür. Bavariyada Ayu, yəni Ayı çayının sahilində Turnay, Bolqarıstanda Turnovo (Durna ova) şəhərlərini [Всеобший географический и статистический словарь 1843.s.452-453] salmışlar.

Eyni zamanda Macarıstanın bir vilayəti Torna adlanırdı [Всеобший географический и статистический словарь 1843.s.428]. Deməli, totemi durna quşu olan türklərin bir hissəsi Macarıstanda, bir hissəsi Bavariyada yurd salmış, yüzillər keçəndən sonra ətrafın etnik çoxluğu arasında assimilyasiyaya uğramışdır.

Əbdurrəşid Bakuvi yazır: – Başqurd böyük türk xalqıdır. Onlaarın bir tayfası Torna adlanır. Özünü Torna adlandıran adamlar durnaya sitayiş edirlər [Бакуви: 1971.s.111; Bakuvi: 1992.s.147].

Anadolu türklərinin bir neçə qəbiləsi İslam dinini qəbul edib müsəlmanlaşandan sonra uzun müddət durnaya qədim totemik münasibəti qoruyub saxlamışdı. Bunu bəzi təriqət dərvişlərinin mərasimlərində görürük.

Görkəmli təriqət şeyxi Əhməd Yəsəvi ayin zamanı durna donuna girərdi. Yəni durna lələkləri ilə bəzənmiş cübbə geyinər, öz hərəkətləri ilə durnaları yamsılayardı [Bahaeddin Ögel: 1971.s.29].

İbn-Xordadbeh yazır ki, Yəməndə Sani yolunun üstündəki Asaf şəhəri islamiyyətə qədər Durna adlanırdı [Ибн-Хордадбех: 1986.s.317]. V sülalə fironlarının qəbirlərində əhliləşdirilmiş durna şəkillərinin olması [Домокош Варга:

1973.s.75] göstərir ki, Misirin Asiya mənşəli V sülalə fironlarının ərvah quşu durna olmuşdur.

Xəzər xaqanı İosif Kordova xəlifəsinin vəziri Xasday ibn-Şafrua məktubunda yazır ki, t-r-na Xəzər tayfalarından biridir [Плетнева: 1986.s.5-7]. Qədim yevrey əlifbası ilə yazılmış t-r-na etnonimini bəzi mətnşünaslar tarna, bəziləri turna kimi oxuyurlar.

Türk dillərinin tarixi leksikasinda bu sözün həm tarna, həm turna formalarına təsadüf edirik. Ərəb, yəhudi Bizans tarixçiləri xəzərlərin bu tayfasını daha çox Tarna adlandırırlar [Баскаков: 1969.s.23].

Çuvaşlar durnaya tarna [Базарова: 1975.s.19], Azov urumları turna deyirlər [Гаркавец: 1988.s.145]. Mahmud Kaşğarinin lüğətində də bu quş adı turna formasındadır [Mahmud Kaşğari: III, 2006.s.224].

Azərbaycan ərazisində Tarna yurt, Tərnəküt, Dərnəgül yaşayış məskənlərinin olması göstərir ki, durnaya tapınan əcdadlarımız həm də Azərbaycanın qədim sakinləridir. Xüsusilə maraqlıdır ki, Ağdamdakı bir kəndin adı Tarna yurt, Şahbulaq qalasının qədim adı Tərnəküt olmuşdur [Azərb.ərazi bölgüsü: 1979.s.18]. Tərnəküt Tarna və Kut, Dərnəgül Tarna və Qul etnik icmalarının yurdu deməkdir.

Totemi durn olan türklərin bir oymağı eranın əvvəllərində Albaniya ilə İberiya arasında qala tikib düşməndən qorunurdu. V-VII əsr kilsə salnamələrində onların mahallarının adı Tornavan və Tornaqan formalarında yazıya alınmışdır [Хоренский: 1893.s.293; Шопен: 1852.s.58, 83].

Tornaqan totemi durna olanların, Tornavan Durna və Avan etnik icmalarının yurdu, yaşayış yeri deməkdir.

Musa Xorenli yazır ki, İberiyanın bir vilayəti Tarna adlanır [Хоренский: 1809.s.224]. Nəzərə alsaq ki, İberiyanın XI əsrə – baqrationlara qədərki qəbilə və tayfaları cürbəcür dillərdə və ləhcələrdə, o cümlədən Türk dillərinin arxaik ləhcələrində danışırdılar [İlhami Cəfərsoy: 2014.s.3-32; Хантадзе: 1870.s.83; Вермишев: 1904.s.3-225], mübahisəyə ehtiyac qalmır.

Arxeoloqlar İtaliyanın şəhər xarabalıqlarından Etrusk dövrünə aid bürünc güzgülər tapıblar. O güzgülərin arxa tərəfinə Tarna, Sabin, İnax, Arqa, Arqu zadəgan adları yazılmışdır [Fowber: 1965.s.506; Varron: 2020.s.3, 21, 39; Авдиев: 1948.s.243]. Bunlar hamısı latınlardan əvvəl Siciliyada və İtaliyada yaşayan zadəgan türk nəsillərinin adlarıdır.

Roma dövrünün görkəmli dövlət xadimi Mesenat şair Horatsiyə Sabin, yəni yenilməz qəhrəman adı vermişdi. Sabin alpları Durnanın ordusunun sağ cinahında dururdular [Varron: 1938.s.32; Вергилий: 1933.s.8, 15].

Publi Maron Vergili yazır ki, Turna Arqosun hökmdarı İnaxın nəslindədir [Вергилий: 1933.s.345, 367]. İnax kimdir? Roma dövrü ədiblərinin yazdığına görə o həm də Durna nəslinin əcdadlarından biridir [Вергилий: 1982.s.15, 18, 34].

Misirin Asiya mənşəli fironlarının qəbirlərindən mumiyalanmış inək başları tapılmışdır [Генрих Грець: I. 1906.s.53; Вайнштенйн: 1909.s.21].

İnək qədim Misirin bəzi vilayətlərində gözəllik və incəsənət ilahəsi [Генрих Грецъ: I. 1906.s.53], bəzilərində su və hava ilahəsi sayılırdı. İliopol kahinlərinin məhz bu səbəbdən tərtib etdikləri müqəddəs təlimlər toplusu "İnəklər kitabı" adlanır [Тураев: 1920.s.141].

Totemi inək olan prototürklər Ön Asiyadan Misirə, Aralıq dənizi adalarına gəldilər. Elladanın yunanlara, İtaliyanın latınlara qədərki mədəniyyətinin bünövrəsini qoydular. Vilhelm Vaqner 1901-ci ildə Sankt-Peterqurqda nəşr etdirdiyi "Ellada" kitabında yazır ki, Yunanıstanın yunanlardan əvvəlki əhalisi Misirdən və Kiçik Asiyadan gəlmədir [Вагнер: 1901.s.30].

M.B. Vaynşteyn onları Kuş övladları adlandırır və yazır ki, Kuş övladları turanlılardır, türklərin əcdadlarıdır [Вайнштейн 1909.s.47, 49].

Son yüz ildə yazılan elmi əsərlərdə bu cür fikirlərə rast gəlmək mümkün deyildir. 1923-cü ildə İtaliyada Mussolini, 1933-cü ildə Almaniyada Hitler hakimiyyətə gəldi İnsanların beyninə yeridilirdi ki, dünya mədəniyyətinin beşiyi Ön Asiya, Şumer deyildir, cənub-qərbi Avropadır.

O necə Avropadır ki, antik dövrünün gözəllik və incəsənət ilahəsi türkcə İnək adlanırdı. İnəyin bir oğlunun adı Dana, birinin adı Durna idi?

Sofoklun Hellanik tərəfindən nəql olunan tragediyasında inək adı İnaxos formasındadır [Adile Ayda: 2014.s.25]. Yunan dilində -os kişi cinsinin adlıq hal şəkilçisidir [Абаев: 1949.S.168; Кероп Патканов: 3160.s.201].

Türkoloji tədqiqat üçün maraqlıdır ki, qədim Misir və Ön Asiya panteonunda olduğu kimi Elladanın yunanlara, İtaliyanın latınlara və romalılara qədərki miflərində İnək çay, su, məhsul ilahəsiditr. Publi Maron Vergili yazır ki, Durnanın əcdadı İnax inəyin timsalında çayların, suların sahibinə sitayiş edirdi [Вергилий: 1971.s.432, 433].

Esxil yazır ki, H`Era Zevsə qısqandığı üçün İnaxın qızı İonu inəyə döndərmişdi [Esxil: 2006.s.195]. Bu əfsanədən görünür ki, qədim Elladada yalnız yunanların yox, bir-birilə vuruşan müxtəlif xalqların, o cümlədən biz türklərin əcdadları yaşamışdır.

İnəyə totemik münasibət Türk xalqlarının mifik təxəyyülündə XIII-XIV əsrlərə qədər qalırdı. Əbdürrəşid Bakuvi yazır: - Baca Türk xalqıdır, onlar inəyə sitayiş edirlər, südünü içirlər, ancaq ətini yemirlər [Бакуви: 1971.s.102; Bakuvi: 1992.s.136].

Qırğızlar da bacalar kimi inəyi özlərinə ana xəttilə əcdad bilirdilər. Qırğızların yaradılış əfsanəsinə görə onların ilk atası Ana mağarasında bir inəklə ər-arvad kimi yaşayırmış. Qırğızlar o inəklə o kişinin balalarıdır [Bahaeddin Ögel: 1971.s.21].

Ana mağarasına və inəyə sitayiş tuvalarda da var idi. Tuvalar Ana mağarasının qarşısında göyün və yerin sahibinə boz inək qurban kəsərdilər [Bahaeddin Ögel: 1971.s.21, 34].

İnəyə totemik münasibət bəzi hindavropa etnoslarının mifik təxəyyülündə bugünədək qalmaqdadır. Hindistanın bir neçə etnik icması indiyədək inəyin ətini

yemirlər. Ancaq onlar Elladanın yunanlara qədərki prototürk xalqları kimi inəyə inax, inəyin erkək balalarına dana, buka demirlər, ko, kou, korova deyirlər.

***Nəticə.*** İtaliyanın latınlara və romalılara qədərki mədəniyyətini Ön Asiyanın prototürk etnosları yaratmışdır. İtaliyanın Axillesi sayılan Troya əsilli Durna onların alp igidlərindən biridir. Sili İtalikin “Punika” eposunda onun adı Torna, Publi Maron Vergilinin “Eneida” eposunda Turna, Mark Terenti Varronun “De linqua latina” əsərində Tarna variantında yazıya alınmışdır.

Durna yalnız bir qəhrəmanın adı deyildir, İtaliya ilə yanaşı Bavariyada, Macarısyanda yurd salmış, yüzillər sonra Avropa xalqları arasında assimilyasiya olunmuş prototürk nəsillərindən birinin adıdır.

Cənubi Qafqazda, Volqa boyunda isə onlar son zamanlara qədər öz dillərini, etnik kimliklərini qoruyub saxlaya bilmişdilər.

Durna etnik və teofor adları durnaya totemik münasibətilə bağlı olaraq yaranmışdır. Totemi durna olan türklərin mifik təxəyyülünə görə cəsur oğlanların düşmənlə döyüşlərdə bədənləri ölür, ruhları ölmürdü, Özləri ölsələr də, ruhları bir qartalın, durnanın bədəninə köçərək yaşayırdı.

Xəzər dənizi sahillərindən İtaliyaya, Kazan şəhərindən Macarıstana qədər yayılmış Durna etnotoponimləri həmin arxaik inanc ilə bağlıdır.

## ƏDƏBİYYAT


1. Абаев: 1949 – Абаев В.И. Осетинский язык и его фольклор. Т.1, Л.. Наука, 1949.
2. Вергилий: 1933 – Вергилий Публий Марон Энеида. Москва-Ленинград, 1933.
3. Вергилий: 680 – Вергилий Публий Марон Энеида. Ш № 680 (AMEA Mərkəzi Elmi Kitabxanası).
4. Вергилий: 1946 – Вергилий Публий Марон Энеида. Москва, 1946.
5. Вергилий: 1971 – Вергилий Публий Марон Энеида. Буколики. Георгики. Москва, 1971.
6. Силий Италик: 2009 – Силий Италик. Пуника. Поэма о второй пунической войне. кн.1. Москва, изд-во Имперо, 2009.
7. Homer: 2005 – Homer. İliada. Bakı, Şərq-Qərb, 2005.
8. Esxil: 2006 – Esxil. Seçilmiş əsərləri. Bakı, Avrasiya Press. 2006.
9. Бакуви: 1971 – Бакуви Абд-ар-Рашид. Китаб талхис ал-асар ал-малик ал-каххар. Москва, Наука, 1971.
10. Bakuvi: 1992 – Bakuvi Əbdürrəşid. Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri. Bakı, Şur, 1992.
11. Всеобший геогр. и стат. словарь: 1843 – Всеобший географический и статистический словарь. т.1 Санкт Петербург, 1843.
12. Географическо-статистический словарь: 1863 Географическо-статистический словарь Российской Империи. т. 1, Санкт Петербург, 1863.
13. Эрнст Ренан: 1873 – Эрнст Ренан. История первых веков христианства. Антихрист. т. 4, Санкт Петербург, 1873.

14. Кероп Патканов: 1879 – Кероп Патканов. О минимом походе Тиклат Паласара к берегам Инда. Санкт Петербург, 1879.
15. Домокош Варга: 1973 – Домокош Варга. Древний Восток. Будапешт. изд-во Корвина, 1973.
16. Bahaeddin Ögel: 1971 – Bahaeddin Ögel. Türk mitolojisi. c.1 Ankara, 1971.
17. Ибн-Хордадбех: 1986 – Ибн Хордадбех. Книга путей и стран. Баку, Элм, 1986.
18. Плетнева: 1986 – Плетнева С.А. Хазары. Москва, Наука, 1986.
19. Баскаков: 1969 – Баскаков Н.А. Введение в изучение тюркских языков. Москва, Высшая школа, 1969.
20. Базарова: 1975 – Базарова Д.Х. К этимологии древнетюркских названий птиц. Тюркология, Баку, 1975, №4, с.11-22.
21. Гаркавец: 1988 – Гаркавец А.Н. Тюркские языки на Украине. Киев, изд-во Наукова Думка, 1988.
22. Mahmud Kaşğari: 2006 – Mahmud Kaşğari. Divanü-luğatit-türk. c.III, Bakı, Ozan, 2006.
23. Azərbaycanın inzibati-ərazi bölgüsü: 1979 – Azərbaycanın inzibati-ərazi bölgüsü. Bakı. Azərnəşr, 1979.
24. Хоренский: 1893 – Хоренский Моисей. История Армении пер., прим., прил., Н. О. Эмина. Москва. Тип-я В.А. Гатнук, 1893.
25. Шопен: 1852 – Шопен И.И. Исторический памятник состояния Армянской области к эпоху ея соединения к Российской Империи. Санкт Петербург, 1852.
26. İlhami Cəfərsoy: 2014 – İlhami Cəfərsoy.İber və H`Ay folklorunda Türk mifik təfəkkürünün izləri. Bakı, 2014.
27. Хантадзе: 1970 – Хантадзе Ш.А. Академик Мари Броссе и Европейское грузиноведение. Тбилиси, Мецниереба, 1970.
28. Вермишев: 1904 – Вермишев Х.А. Материалы для истории грузино-армянских отношений. Санкт Петербург, 1904.
29. Fowler 1965 – Fowler M, Wolf R. Materials for the Language. London. Madison, and Milvan, 1965.
30. Varron: 2020 – Varron Mark Terensi. Latın dili haqqında. Bakı, Elm və Təhsil, 2020.
31. Авдиев: 1948 – Авдиев В.И. Военная история древного Египта. Москва, Наука, 1948.
32. Генрих Грець: 1906 – Генрих Грець. История евреев, т. 1, Одесса, 1906.
33. Вайнштейн: 1909 – Вайнштейн М.Б. История мироздания. т. 1. Одесса, 1906.
34. Тураев: 1920 – Тураев Б.А. Египетская литература. Москва, 1920.
35. Adile Ayda: 2014 – Adile Ayda. Etrüskler türkmüdür? Ankara, 2014.
36. Вагнер: 1901 – Вагнер Вильгельм. Эллада. Санкт Петербург, 1901.

## DURNA – ACHILLES OF ITALY


## SUMMARY

The Prototurkic generations of the Old Westeen Asia are the founders of the first sivilization of Ellas, the islands of the Mediterranian Sea, and Italy.

In the end of the 15th century BC before the fall of Troy and with some intervals in the 14th-11th centuries BC, some of them migrated to Sicily, Italy, and named Corsica and the Alps with their names.

The information is confirmed in the Etruscan mirror texts, the works of Homer and Aeschylus, *Aeneid* by Publius Vergilius Maro, and *Punica* by Silius Italicus.

One of the valuable sources of the research is *On the Latin Language (De lingua latina)* by Marcus Terentius Varro, the encyclopedic scholar of the Roman period. Though the work riched to our time incompletely, there is significant information about the ethnic groups of Italy before the Roman period. One of those significant facts is about Durna, the hero of Italy of Western Asian origin. In the Roman literature, Durna is presented as the Achilles of Italy.


**Keywords:** Silius Italicus, *Aeneid,* the Latins, Troy, the generation Ana, Tarna

## ДУРНА – АХИЛЛЕС ИТАЛИЙСКИЙ


## КРАТКОЕ СОДЕРЖАНИЕ

Прототюркские поколения Старо-Западной Азии являются основателями первой цивилизации Эллады, островов Средиземного моря и Италии.

В конце 15 века до нашей эры, перед падением Трои и с некоторыми перерывами в 14-11 веках до нашей эры, некоторые из них мигрировали на Сицилию, Италию и назвали своими именами Корсику и Альпы.

Информация подтверждается в этрусских зеркальных текстах, произведениях Гомера и Эсхила, «Энеиде» Публия Вергилия Марона, «Пунике» Силия Италика.

Одним из ценных источников исследования является книга «О латинском языке» (De lingua latina) Марка Теренция Варрона, ученого-энциклопедиста римского периода. Хотя труд дошел до нашего времени не полностью, имеются значительные сведения об этнических группах Италии доримского периода. Один из таких важных фактов касается Дурны, героя Италии западноазиатского происхождения. В римской литературе Дурна представлен как Ахилл Итальянский.


**Ключевые слова**: *Силий Италик, Энеида, латиняне, Троя, поколение Ана, Тарна.*